AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU**

AZ1141, Azərbaycan Respublikası
Bakı, B.Vahabzadə küçəsi, 9.

Tel.: (99412), 539-39-24, 538-24-44, 539-01-92
Fax: (99412) 539-01-02, e-mail: rmi@imm.az

№ 38-9/53 «12» mart 2021 il

**Azərbaycan Universitetinin rektoru**
**Səadət xanım Əliyevaya**

Hörmətli Səadət xanım,

Sizi və Azərbaycan Universitetinin kollektivini Universitetin fəaliyyətə başlamasının 30 illiyi münasibətilə ürəkdən təbrik edirəm!

Azərbaycan Universitetinin ölkəmizin ən yeni təhsil tarixində müstəsna yeri var. 1991-ci ildə fəaliyyətə başlayan bu universitet ölkəmizdə özəl ali təhsilin bünövrəsini qoymaqla yanaşı, Azərbaycanın müstəqilliyinin bərpası ilə də həmyaşıddır. Universitet keçən 30 il ərzində böyük inkişaf yolu keçmiş, ölkəmizin təhsil məkanında öz çəkisi və dəst-xətti ilə daim seçilmişdir.

Azərbaycan Universitetinin məzunları dövlət idarəçiliyndə yüksək mövqe tutur, iş dünyasının hər sahəsində, diplomatik nümayəndəliklərdə, təhsil müəssisələrində, məhkəmə və vergi orqanlarında böyük uğurlara imza atır, ölkəmizin ictimai həyatında fəal rol oynayırlar.

Hörmətli Səadət xanım,

Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi yubiley münasibətilə təbrik edir, yüksək ixtisaslı gənc kadrların hazırlanması, gənclərə yüksək mənəvi keyfiyyətlərin və ali dəyərlərin aşılanması isiqamətində fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Hörmətlə,

**Direktor**

**AMEA-nın müxbir üzvü**
**professor Misir Mərdanov**